## Pres Reliz

*Tarix:* 7 fevral 2013-cü il

*Əlaqə üçün şəxs :* Fəridə Axundova, PwC Azərbaycan
farida.akhundova@az.pwc.com

*Səhifə:* 1

# *Maliyyə savadlılığı mövzusunda treninq*

***Azərbaycan Respublikası Mərkəzi Bankının (ARMB) Tədqiqatlar və İnkişaf Mərkəzi tərəfindən PwC Akademiyası ilə birlikdə kommersiya banklarının kredit mütəxəssisləri və müştəri təmsilçiləri üçün 7 fevral 2013-cü il tarixdə Central Park otelində bir günlük təlim keçirilmişdir. Həmin təlim, ARMB-nın 2011-2014-cü illər üzrə strateji planına uyğun olaraq, Maliyyə Savadlılığı layihəsi çərçivəsində müxtəlif hədəf qrupları, habelə kommersiya bankları üçün bir sıra seminar və treninqlərin keçirilməsi üzrə plana uyğun olaraq təşkil olunmuşdur.***

Təlimin əsas məqsədi bank əməliyyatlarına dair müştəriləri ətraflı və düzgün məlumatlandırmaq üçün kredit və kredit risklərinin qiymətləndirilməsi mütəxəssislərinə, müştəri təmsilçilərinə maliyyə savadlılığının əsasları barədə zəruri biliklərin verilməsi olmuşdur.

PwC Akademiyasının ekspertləri tərəfindən keçitilən təlimdə ailə büdcəsi və onun xüsusiyyətləri, ailənin balans hesabatı, maliyyə hesabatının əsasları və maliyyə təhlili mövzuları üzrə məlumat verilmişdir. Təlimdə iştirak edənlər Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya banklarının vəzifəli əməkdaşları olmuşdur.

### *Redaktor üçün qeydlər*:

*PwC Azərbaycan müxtəlif sahələrdə audit, vergi, hüquq və məsləhət xidmətləri göstərir. PwC Bakı ofisində çalışan 100-dən artıq peşəkar mütəxəssis öz fikirlərini, təcrübəsini və çözümlərini bölüşərək müştərilərimiz üçün yeni perspektivlər yaradır və praktiki məsləhətlər verir. Daha ətraflı məlumat üçün: www.pwc.com/az səhifəsinə müraciət edin.*

PwC şirkətlərə və insanlara qazanmaq istədikləri dəyəri yaratmağa kömək edir. Biz dünyanın 158 ölkəsində fəaliyyət göstərən və audit, vergi və məsləhət xidmətləri sahəsində keyfiyyətin təmin edilməsini qarşısına məqsəd qoyan 180,000-dən artıq insanın cəmləşdiyi şirkətlər şəbəkəsiyik. Sizi maraqlandıran məsələləri bizimlə bölüşün və əlavə məlumat üçün saytımıza daxil olun: www.pwc.com. "PwC" dedikdə PwC şəbəkəsi və/və ya bu şəbəkəyə üzv olan və hər biri müstəqil hüquqi şəxs olan bir və ya bir neçə şirkət nəzərdə tutulur. Daha ətraflı məlumat üçün: www.pwc.com/structure